Yerləşdiyi bölgənin lideri statusunu layiqincə daşıyan Azərbaycan dünyanın inkişaf etmiş ölkələrindən birinə çevrilmək istiqamətində qarşısına qoyduğu hədəfə doğru inamla irəliləyir, hər ötən dövrü uğurla başa vurur. Bu baxımdan 2016-cı ilin geridə qoyduğumuz altı aylıq dövrü də respublikamız üçün əlamətdardır. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iyulun 10-da keçirilən iclasında bu barədə müzakirələr aparıldı, ölkə başçısı vəziyyəti geniş təhlil edərək qarşıda duran vəzifələri müəyyənləşdirdi. Dünyada təhlükələrin artdığı, iqtisadi böhranın dərinləşdiyi və bütün ölkələrin bu böhrandan müxtəlif formada əziyyət çəkdiyini bildirən Prezident İlham Əliyev Azərbaycanda uğurlu inkişafın təmin edildiyini, ictimai-siyasi vəziyyətin sabit qaldığını, ölkə qarşısında duran vəzifələrin həll olunduğunu bildirdi.

# Abşeron uğur estafetini davam etdirir



## Rayonda bütün tapşırıqlar vaxtında və keyfiyyətlə icra edilib

Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasından irəli gələn məsələlər və qarşıda duran vəzifələr dünən Abşeron Rayon İcra Hakimiyyəti başçısı yanında şura iclasında müzakirə olundu. İclasda çıxış edən Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova bildirdi ki, ölkə Prezidenti İlham Əliyevin müdrik daxili və xarici siyasəti nəticəsində qazanılmış uğurlar abşeronluları da ürəkdən sevindirir. Hesabat dövründə Abşeronda qarşıya qoyulmuş bütün tapşırıqlar vaxtında və keyfiyyətlə icra edilib. Bunun nəticəsidir ki, 2016-cı ilin birinci yarısı rayon üçün uğurlu dövrlərdən biridir. Hesabat dövründə rayonda abadlıq-quruculuq işləri davam etdirilib, əhalinin elektrik enerjisi, içməli su-kanalizasiya, təbii qazla təchizatı, yol infrastrukturunun daha da yaxşılaşdırılması, sakinlərin məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması istiqamətində xeyli işlər görülüb.

2016-cı ilin birinci yarısında rayonun daxili imkanları hesabına Xırdalan şəhərində Hacı Zeynalabdin Tağıyev, Qalubiyyə, Füzuli, Səttar Bəhlulzadə, Yusif Məmmədəliyev küçələrində abadlaşdırılma işləri həyata keçirilib, Misir Dostluq parkı yenidən qurulub. Saray qəsəbəsində Şəhidlərin xatirəsinə abidə ucaldılıb, şəhidlərin adına olan park, eyni zamanda, Vəli Axundov adına park abadlaşdırılıb. Aşağı Güzdək qəsəbəsində Həzi Cavadov, Novxanı kəndində Mehdi Hüseynzadə küçələrində daxili imkanlar hesabına abadlıq işləri görülüb. Masazır kəndinin mərkəzi küçəsi olan Əlağa Vahid küçəsinin işıqlandırılması məqsədilə 85 işıq dirəyi basdırılaraq 5 km uzunluğunda kabel çəkilib. Yeni Bakı yaşayış massivinə gedən yola asfalt örtük döşənib. Hazırda Ceyranbatan və Mehdiabad qəsəbələrində parkların, Masazır kəndində Heydər Əliyev və Zərifə Əliyeva adına küçələrin yenidən qurulması işləri həyata keçirilir.

Ötən dövrdə Xırdalan şəhərində 17 çoxmənzilli yaşayış binası təmir edilib, ehtiyac olan digər binalarda da təmir işləri aparılır. Rayon icra hakimiyyəti başçısının verdiyi tapşırığa uyğun olaraq, çoxmənzilli yaşayış binalarının həyətlərində qanunsuz zəbt edilmiş 196 daş və ya metal torla hasarlanmış ərazi sökülərək təmizlənib. Hazırda bu sahədə işlər davam etdirilir və həmin ərazidə əhalinin gəzintisi və istirahəti üçün müvafiq şəraitin yaradılmasına başlanılıb.

## Hər sahədə infrastrukturun yenilənməsi diqqət mərkəzindədir

İlin birinci yarısında rayonun infrastrukturunun yenilənməsi də diqqət mərkəzində olub. Məsələn, yol infrastrukturunun yaxşılaşdırılması məqsədilə rayonun yaşayış məntəqələrində daxili yollara 30707 kubmetr qrabil tökülərək yayılıb, 45772 kvadratmetr sahə asfaltlanıb, 6468 poqonmetr səki daşı düzülüb, piyada səkilərinə 2600 kvadratmetr tamet döşənib. Rayonun daxili imkanları hesabına Hökməli-Qobu yolunun yararsız hala düşmüş hissəsində yağış və qrunt sularının avtomobil yoluna axmasının qarşısının alınması məqsədilə yol kənarı boyunca 900 metr uzunluğunda beton suötürücü və plastik boru ilə drenaj xətləri çəkilib. Yolun yararsız vəziyyətə düşmüş hissəsinə asfalt örtük verilməsi ilə bağlı rayon icra hakimiyyəti tərəfindən "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə müraciət olunub və yaxın günlərdə yola asfalt örtük verilməsi təmin ediləcək.

Əhalinin sabit elektrik enerjisi ilə təminatından ötrü yaşayış məntəqələrində 37 ədəd yeni transformator quraşdırılıb, 22 ədəd transformator əsaslı təmir olunub, 2 ədəd yanmış transformator bərpa edilib, 323 ədəd dayaq və 54 min metr naqil dəyişdirilib, yaşayış məntəqələrində 57 min metr uzunluqda "SİP" kabelləşməsi aparılıb. Masazır kəndində yeni 2 dövrəli hava xətti çəkilərək istismara verilib, Fatmayı yarımstansiyasından uzunluğu 3 km olan Mehdibad-5 və uzunluğu 250 metr olan Fatmayı-4 elektrik verilişi xətti çəkilib. Aşağı Güzdək qəsəbəsində enerji təminatının yaxşılaşdırılması məqsədilə Ceyranbatandan gələn yüksəkgərginlikli elektrik xəttində 70 ədəd elektrik dirəyi, 11 km uzunluğunda naqil yenisi ilə əvəz olunub.













RİH rəhbərliyinin Azərbaycan Respublikasının Prezidenti Administrasiyası və Nazirlər Kabinetinə etdiyi müraciətlərin nəticəsi olaraq artıq Qobu qəsəbəsində 110 kv-luq, Saray qəsəbəsində və Masazır kəndinin hər birində 35 kv-luq olmaqla 3 yarımstansiyanın tikintisinə, Pirəkəşkül, Qobustan kəndlərində elektrik təchizatının yaxşılaşdırılması üçün 35 kV-luq Caylı və Cəngi yarımstansiyalarında yenidənqurma işlərinə başlanılıb.

2016-cı ilin 6 ayı ərzində rayonun yaşayış məntəqələrində müxtəlif diametrli borularla 6264 p/m uzunluğunda yeni içməli su xətləri çəkilib, 3550 p/m uzunluqda korroziyaya uğramış xətt dəyişdirilib, 1980 ədəd su sayğacı quraşdırılıb, eləcə də 609 p/m uzunluğunda kanalizasiya xətləri yenilənib. Podratçı təşkilatlar tərəfindən Saray bağ massivində işlər yekunlaşdırılıb, Goradil, Fatmayı, Digah ərazilərində inşası yarımçıq qalmış quraşdırma işləri tikinti təşkilatları tərəfindən layihə üzrə davam etdirilib. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə edilmiş müraciətin nəticəsi olaraq Pirəkəşkül kəndinə gedən içməli su xəttinin 2 km-lik hissəsi yeni borularla əvəz edilib və kəndin içməli su təminatı xeyli yaxşılaşdırılıb. Aşağı Güzdək qəsəbəsində 1600 metr su xətti çəkilib, yeni nasosxana tikilib, hazırda 1 km uzunluğunda plastik borularla birləşdirmə işləri həyata keçirilir. Saraydan Novxanıya gedən istismara yararsız hala düşmüş 300 mm-lik boru xəttinin 150 metrlik hissəsi təmir olunub. Hökməli qəsəbəsində 3 km uzunluğunda və Qobu qəsəbəsindəki yeni yaşayış massivinə yeni içməli su xəttinin çəkilişinə başlanılıb. Hazırda işlər davam etdirilir.

Bu gün rayonun ən ciddi problemlərindən biri Aşağı Güzdək və Saray qəsəbələrində mövcud göllərə kanalizasiya və çirkab sularının axıdılması və nəticədə göl ətrafında olan evlərin su altında qalmasıdır. Problemin həllinə köməklə bağlı aidiyyəti orqanlar qarşısında məsələnin qaldırılmasının nəticəsi olaraq artıq Aşağı Güzdək qəsəbəsində gölün səviyyəsinin aşağı salınması işlərinə başlanılıb. Bu məqsədlə göl kənarında nasosxana quraşdırılması və suların Sumqayıt çayına axıdılması üçün 4 km uzunluğunda boru xəttinin çəkilişi işləri həyata keçirilir.





Rayon ərazisində fəaliyyət göstərən Samur-Abşeron kanalının İstismar İdarəsi tərəfindən hesabat dövründə xeyli işlər görülüb. Kanal vasitəsilə Ceyranbatan su anbarına 195 milyon kubmetr su vurulub. Samur-Abşeron kanalında 129 kubmetr beton təmir işləri aparılıb, 180 min kvadratmetr sahə təmizlənib, kanal üzərində 6 ədəd körpü təmir edilib, Ceyranbatan nasos stansiyasında əsaslı təmir işləri görülüb. Rayonun və Bakı şəhəri kəndlərinin əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi məqsədilə rayon suvarma sistemləri İdarəsi tərəfindən 31 ədəd nasos, 587 metr iri diametrli metal boru xətləri təmir edilib, 33 km uzunluğunda kanal lil və məişət tullantılarından təmizlənib.

## Sosial-iqtisadi nəticələr qənaətbəxşdir

Bu ilin birinci yarısında da rayonda sahibkarlığın inkişafı, əhalinin maddi rifahının yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi, onların sosial problemlərinin həlli məsələləri icra hakimiyyəti başçısı aparatının daim diqqət mərkəzində saxlanılıb. Belə ki, ötən 6 ayda rayonda sənaye məhsulunun həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 10,6 faiz artaraq 60,8 milyon manata çatıb. Sənaye müəssisələrində işləyənlərin sayı 6107 nəfər olub və işçilərin orta aylıq əməkhaqqı 421 manat təşkil edib.

Ölkə Prezidenti İlham Əliyev tərəfindən verilən tapşırıqların əsasını rayon və şəhərlərdə dotasiyalardan asılılığın minimuma endirilməsi təşkil edir. Artıq 5 ildir ki, Abşeron rayonu dotasiya almadan bütün xərclərini yerli daxilolmalar hesabına maliyyələşdirir. Hesabat dövründə Abşeron rayon büdcəsinin yerli gəlirlər proqnozu 15 498 112 manata qarşı 15 891 036 manat və ya 102,5 faiz yerinə yetirilib, nəticədə büdcəyə nəzərdə tutulduğundan 393 min manat əlavə vəsait daxil olub.

2016-cı ilin 6 ayı ərzində Sahibkarlığa Kömək Milli Fondu tərəfindən rayonun inzibati və təhkim olunmuş ərazilərində fəaliyyət göstərən sahibkarlara 26 investisiya layihəsi üçün 8 milyon 540 min manat güzəştli kredit verilmişdir. Bunlardan 4-ü sənaye, 22-si kənd təsərrüfatı məhsullarının istehsalı və emalı müəssisəsidir. Bu müəssisələrdə 196 yeni iş yerinin yaradılması nəzərdə tutulur.

Eyni zamanda, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən verilmiş tapşırıqlara uyğun olaraq İqtisadiyyat Nazirliyi Abşeron rayonunun mövcud iqtisadi potensialını nəzərə almaqla istixana və zeytunçuluq təsərrüfatlarının yaradılmasını məqsədəuyğun hesab edib. Bu layihələrin həyata keçirilməsi üçün Sahibkarlığa Kömək Milli Fondu tərəfindən qanunvericiliyə uyğun olaraq güzəştli kreditlərin verilməsi nəzərdə tutulur. İstixanalar və zeytunçuluq təsərrüfatlarının yaradılması məqsədilə artıq Aşağı Güzdək qəsəbəsində 100 hektar, keçmiş Zirə tərəvəzçilik-südçülük sovxozu ərazisində 50 hektar torpaq sahəsi müəyyən olunub. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Ümumiyyətlə, ötən illərdə olduğu kimi, 2016-cı ildə də rayonda kənd təsərrüfatının inkişafına xüsusi önəm verilməkdədir. Bunun nəticəsidir ki, rayonda heyvandarlıq və bitkiçilik məhsulları istehsalının həcmi xeyli artıb. Hesabat dövründə keçən ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfə çox - 649 hektar sahədə tərəvəz əkilib. Qəsəbə və kəndlərdə əhali və fermer təsərrüfatlarında qaramalın sayı 20470 başı, davarın sayı 106348 başı, quşların sayı isə bir milyonu ötüb. Hesabat dövrü ərzində 1234 ton ət, 16549 ton süd istehsal olunub, yumurta istehsalı isə 23 faiz artaraq 84 milyon ədədə çatıb.

Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə sahibkarlığın inkişaf etdirilməsi, yeni iş yerlərinin açılması, sərmayələrin cəlb edilməsi ilə bağlı tapşırıqlarının icrasının təmin edilməsi məqsədilə RİH başçısının müvafiq sərəncamı ilə rayonda ərazinin inkişafına təsir edə bilən qurumların rəhbərləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri, rayonda fəaliyyət göstərən sahibkarlar da daxil edilməklə 27 nəfərdən ibarət rayon qərargahı yaradılıb. Eyni zamanda, "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apelyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanında nəzərdə tutulmuş tapşırıqların icrasının təmin edilməsi məqsədilə rayon icra hakimiyyəti başçısının sərəncamı ilə Abşeron Rayon İcra Hakimiyyətinin Apelyasiya Şurasının və onun katibliyinin tərkibi təsdiq olunub.

Ötən müddət ərzində Abşeron rayonu üzrə qeyri-məşğul əhalinin ödənişli ictimai faydalı əmək fəaliyyətinə cəlb edilməsi ilə bağlı rayon məşğulluq mərkəzi, rayon təmir abadlıq idarəsi və digər aidiyyəti idarələrlə birgə təkliflər hazırlanıb, rayonun küçə, prospekt, park, xiyaban və magistral yollarının ətrafında görüləcək abadlıq və quruculuq işləri, Xırdalan şəhərində təmir olunacaq beş çoxmənzilli yaşayış binası müəyyən edilib. Abadlıq-quruculuq işləri və mənzil təmiri ilə əlaqədar 311 nəfər rayon sakini işlə təmin olunub. Ümumilikdə 2016-cı ilin ötən müddəti ərzində dövlət qurumlarında və özəl müəssisələrdə 781 rayon sakini işlə təmin edilib.

## Təhsil, səhiyyə və gənclərlə iş sahəsində mühüm tədbirlər həyata keçirilib

2016-cı ilin 6 ayı ərzində rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin normal fəaliyyətləri üçün lazımi şəraitin yaradılması, infrastrukturun müasirləşdirilməsi istiqamətində işlər davam etdirilib. Dövlət vəsaiti hesabına Hökməli qəsəbəsində 6 qrupluq uşaq bağçası-körpələr evi istifadəyə verilib. Saray və Güzdək qəsəbələrində ümumtəhsil məktəbləri üçün əlavə sinif otaqları tikilib. Xırdalan şəhəri ərazisindəki Mexdəstə yaşayış sahəsində və şəhərin 26-cı məhəlləsində, Aşağı Güzdək qəsəbəsində, Masazır və Novxanı kəndlərində 6 qrupluq uşaq bağçası-körpələr evinin tikintisində, eyni zamanda, Ceyranbatan qəsəbə 1 nömrəli tam orta məktəbinin əsaslı təmirində son tamamlama işləri görülməkdədir.

Əhalinin səhiyyə xidmətinin yaxşılaşdırılması istiqamətində də müəyyən tədbirlər həyata keçirilib. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq tapşırığına uyğun olaraq 2016-cı ilin fevral ayından may ayının 15-dək rayonda 127427 nəfər sakin tibbi müayinədən keçirilib. Müayinənin nəticəsi olaraq 1626 nəfər xəstəyə ambulator müalicə təyin edilib, 864 nəfər isə stasionar müayinə və müalicəyə göndərilib. Ölkə Prezidentinin sərəncamına əsasən, Xırdalan şəhərində rayon mərkəzi xəstəxanasının tikintisinə başlanılıb və hazırda işlər davam edir.

Rayonda dövlət gənclər siyasətinin həyata keçirilməsi, idmanın kütləviliyinin təmin edilməsi sahəsində də ciddi iş aparılıb. 2016-cı ilin 6 ayı ərzində rayonun gəncləri 4 respublika gənclər tədbirində, 14 beynəlxalq və 17 respublika idman yarışlarında iştirak ediblər. Bu yarışlarda onlar 103 medal, o cümlədən 53 qızıl medal qazanıblar. Bunlardan da 72-si respublika yarışlarında, 31-i isə beynəlxalq yarışlarda əldə edilib.

Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq həyata keçirilən, gənc və yeniyetmələrin vətənpərvərlik tərbiyəsinin daha da yüksəldilməsində, dünyagörüşünün formalaşmasında mühüm rol oynayan "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində 2016-cı ilin mart ayında rayonun ümumtəhsil məktəblərinin 40 nəfər şagirdi ölkəmizin cənub bölgəsinə səfər ediblər.

Aprel ayının əvvəllərində cəbhə boyu təxribatlar törətməyə cəhd edən Ermənistana Azərbaycan ordusu tərəfindən layiqli cavabın verilməsi bütün respublika əhalisi kimi abşeronlular tərəfindən də böyük ruh yüksəkliyi ilə qarşılanıb. Bu döyüşlərdə rayon ərazisində hərbi xidmətə çağırılan və ikisi məcburi köçkün olmaqla 4 əsgərimiz şəhid olub. Rayon ictimaiyyətinin nümayəndələri birlik nümayiş etdirərək, dəfn və yas mərasimlərində kütləvi iştirak ediblər. Abşeronlular Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmrini gözlədiklərini, ərazi bütövlüyümüzün təmin edilməsi və işğal altında olan torpaqlarımızın geri qaytarılması üçün canlarından keçməyə hər an hazır olduqlarını bir daha bəyan ediblər.

## Vətəndaş müraciətinə çevik reaksiya

Abşeron Rayon İcra Hakimiyyətinin və onun struktur bölmələrinin fəaliyyətində vətəndaşların müraciətlərinə, təklif, ərizə və şikayətlərinə baxılması mühüm yer tutur. 2016-cı ilin 6 ayı ərzində rayon icra hakimiyyətinə 1520 ərizə, təklif və şikayət daxil olub. Bunların 700-ü Prezident Administrasiyasından, 69-u Milli Məclisdən, 86-sı Nazirlər Kabinetindən, 151-i nazirliklər və digər qurumlardan, 514-ü isə bilavasitə vətəndaşlar tərəfindən daxil olub. Rayon icra hakimiyyətində müraciətləri doğuran səbəblər təhlil olunub, qaldırılan məsələlərin həlli ilə bağlı vətəndaşlara vaxtında və konkret cavablar verilib.

RİH başçısı tərəfindən keçirilən qəbullarda 454 nəfər vətəndaşın müraciəti dinlənilib, haqlı tələblərinin təmin olunması üçün lazımi tədbirlər görülüb. Xüsusilə rayon RİH başçısı tərəfindən yerlərdə vətəndaşların səyyar qəbullarına üstünlük verilib. 2016-cı ilin 6 ayı ərzində rayonun şəhər, qəsəbə və kəndlərində 3 min nəfərə qədər rayon sakininin iştirakı ilə səyyar qəbul-görüşlər keçirilib. Qəbullarda qaldırılan məsələlər ilə bağlı RİH başçısının müvafiq tapşırıqları əsasında tədbirlər planı tərtib edilərək aidiyyəti müəssisə və təşkilatlarla birlikdə həlli ciddi nəzarətə götürülüb.

Daha sonra rayon maliyyə idarəsinin rəisi Faiq Şirəliyev, təhsil şöbəsinin müdiri Kamran Rzayev, Xırdalan Enerji Təchizatı və Satışı İdarəsinin rəisi Nemət Qasımov öz sahələrində görülən işlər barədə daha ətraflı məlumat verdilər. Yığıncağa yekun vuran Abşeron RİH başçısı İradə Gülməmmədova bildirdi ki, rayonda abadlıq-quruculuq işlərinin davam etdirilməsi, yeni iş yerlərinin açılması, sənaye, kənd təsərrüfatı sahələrinin inkişafı, yol infrastrukturunun təkmilləşdirilməsi, əhalinin elektrik enerjisi, içməli su, kanalizasiya, təbii qaz və digər problemlərinin həlli, eyni zamanda, dövlət fondu torpaqlarında qanunsuz tikintilərin qarşısının alınması, istifadəsiz torpaqların əkinə cəlb edilməsi və onlardan səmərəli istifadə olunması və digər məsələlərlə bağlı qarşıda bizi çox böyük işlər gözləyir. İradə Gülməmmədova 2016-cı ilin növbəti aylarında da qarşıda duran mühüm tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə nail olunacağına, rayonun sosial-iqtisadi inkişafı və əhalinin sosial problemlərinin həlli istiqamətində mümkün olan bütün tədbirlərin görüləcəyinə əminliyini ifadə etdi.





***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***